

**Dərs nümunəsi:**

# Həyat bilgisi 3-cü sinif (ənənəvi qayda)

III sinifdə Həyat bilgisi fənninin tədrisi üçün həftədə 2 saat olmaqla 32 həftə (64 saat) nəzərdə tutulmuşdur. Kiçik summativ özündə həmin mərhələdə reallaşdırılmış standartları ehtiva edir.

**Ənənəvi dərs**

## 9. SAĞLAMLIĞIMIZI QORUYAQ

**Standart**

**4.1.2** Ətraf mühitdə orqanizmə mənfi təsir göstərən amilləri sadalayır;
**4.2.1** Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir;
**4.2.2** Vaxtı ötmüş qida məhsullarından, dərman preparatlarından istifadənin həyat üçün təhlükəli olduğunu izah edir.

**TƏLİM MƏQSƏDİ**

1. Sağlamlığın qorunmasını və möhkəmləndirilməsini təmin edən amilləri sadalayır;
2. Sağlam həyat tərzi haqqında bildiklərini izah edir.

**İNTEQRASİYA**: F.t.: 1.1.1., 1.1.2., 1.1.3.; Tex.: 3.1.1

| TƏLİM FORMALARI | TƏLİM ÜSULLARI | RESURSLAR |
|---|---|---|
| Kollektivlə iş, kiçik qruplarla iş | Suallar, müzakirə | Dərslik, şəkillər iş vərəqləri |





## DƏRSİN GEDİŞİ

**Motivasiya:** Müəllim lövhədən bir neçə şəkil asır. Şəkillərdə sağlam həyat tərzini əks etdirən təsvirlər ola bilər. Müəllim belə bir sualla sinfə müraciət edir:
-Siz səhərlər idman edirsinizmi? Nə üçün?
Şagirdlərin cavabları dinlənilir. Cavablar ümumiləşdirilir və tədqiqat sualı formalaşdırılır.

**Tədqiqat sualı:** Sağlamlığın qorunması üçün hansı şərtlərə əməl etmək lazımdır?

**Tədqiqatın aparılması:** Dərsliyin 22-23-cü səhifələrindəki mətn oxunur. Sinif şagirdləri 4 qrupa bölünür. Qruplara aşağıdakı məzmunda qrup tapşırıqları yazılmış iş vərəqləri paylanır.

**I qrup.** Gündəlik nələrə əməl etmək lazım olduğunu yazın.
**II qrup.** Məişət avadanlıqları ilə davranış qaydalarını yazın.

## Distant dərs nümunəsi üzrə metodik göstəriş

| IV BÖLMƏ | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Dərs № | Məzmun standartları | Mövzu | Saat sayı | Tədrisin təşkili forması | Alt mövzular | Məkan | Saat/ müddət |
| 1. | 4.2.1., 4.1.2., 4.2.2., | Sağlamlığımızı qoruyaq | 1 | Distant | Mətnlə tanışlıq | asinxron | Növbəti dərsə qədər |
| | | | | | Mövzunun izahı, online tapşırıqlar | sinxron | 35 dəq |
| | | | | | Sərbəst tapşırıqlar | asinxron | Müəyyən edilmiş vaxta qədər |

**Bu mövzu üçün ənənəvi qaydaya əsasən 1 saat nəzərədə tutulur. Proqramın distant dərsə tətbiqi zamanı dərs saatlarının 35 dəqiqə olduğunu nəzərə alaraq, dərslər sinxron və asinxron olaraq keçirilir. Əsasən mövzunun izah və müəllim göstərişi tələb edən hissəsi sinxron, sərbəst sayıla biləcək hissə asinxron olur.**





**1. Mətnlə tanışlıq: Bu mərhələ asinxron olaraq həyata keçirilir.**

(a) müəllim mövzu üzrə Təhsil Nazirliyi tərəfindən ölkənin iki telekanalında yayımlanan teledərsin linkini və ya özü tərəfindən hazırlanan mətnin ifadəli oxusunun audio yazısını Microsoft Teams platformasında öz kanalında yerləşdirir. Həmçinin e-derslik.edu.az portalından kitabın pdf formasını da Microsoft Teams platformasının fayl bölməsinə əlavə edir.

(b) Şagirdlərə Təhsil Nazirliyi tərəfindən ölkənin iki telekanalında yayımlanan teledərsi izləmək və həmin dərsi izlədikdən sonra sərbəst olaraq mətni bir neçə dəfə oxumaq tapşırılır.

**2. Sinxron distant dərsdə müəllim**

(a) mövzu üzrə sual-cavab edərək teledərsdə yayımlanan mövzunun necə mənimsənildiyini yoxlayır.

(b) Sonra şagirdlərə qidalanma mədəniyyəti, yuxu rejimi, hərəkət və gigiyena qaydalarına aid dərslikdəki materialla yanaşı öyrədici videoroliklər təqdim edir.
-Yuxu rejimi ▶ **İZLƏ**
-Düzgün qidalanma ▶ **İZLƏ**

(c) Qısa video çarxlar izləndikdən sonra sağlamlığı qorumağın başqa şərtləri də şagirdlərlə müzakirə olunur. Dərsin sonuna müəllim şagirdlərlə aşağıdakı kimi interaktiv oyun oynayır.

(d) Oyun: Hər bir şagirdə 1-dən 5-ə qədər rəqəmlər içərisindən birini seçmək tapşırılır. Hər rəqəm ayrılıqda bir sərbəst işin mövzusunu ehtiva edir.

(e) **Sərəst iş mövzuları:**
1.Sağlamlığımızı qorumaq üçün gündəlik nələrə əməl etməliyik?
2.Məişət avadanlıqları ilə davranış qayaları
3.Təhlükə anında zəng edə biləcəyimiz dövlət qurumlarının adı və qısa nömrələri.
Bu qurumların fəaliyyəti haqqında nə bilirəm?
4.Sağlam qidalar hansılardır? Nə üçün?
5.Qeyi-sağlam qidalar hansılardır? Nə üçün?

Şagirdlərə 5 dəqiqə ərzində seçdikləri mövzu üzrə yarım səhifəlik esse yazmaq tapşırılır. Şagirdlər mövzu üzrə yazdıqları fikirləri səsləndirirlər.

**3. Müəllim sərbəst iş üzrə şagirdlərə araşdırma aparıb mövzunu genişləndirməyi tapşırır.** Verilmiş vaxtda hər bir tapşırığın şagirdlər tərəfindən Microsoft Teams platformasının POST bölməsində yerləşdirməsi qeyd olunur.





KSQ Müəllim üçün metodik vəsaitdə verilmiş nümunə əsasında sinxron olaraq 35 dəq. ərzində həyata keçirilir. Sualların sayı və çətinlik səviyyəsi sinfin səviyyəsinə uyğun olaraq fənn müəllimi tərəfindən müəyyən olunur.

## Nümunə:

### III sinif HƏYAT BİLGİSİ KSQ – 1.

| Şagirdin adı: | | Soyadı: | | Tarix: | |
|---|---|---|---|---|---|

**1. Məktəb həyatımızda nə kimi rol oynayır?**

- A Bizə şəkil çəkməyi öyrədir.
- B Bizi həyata hazırlayır.
- C Bizə gəzmək öyrədir

**2. Mühitin insana təsiri necədir?**

- A Mühit insana bilik verir.
- B Mühitin insana təsiri yoxdur.
- C Mühitin insanın həyatında böyük rolu var.

**3. İnsan kimə dost deyə bilər?**

- A Onun səhvlərini söyləyənə
- B Ona lətifə danışana
- C Yaxşı və pis gündə yanında olub, ona dayaq olana.

**4. Məktəb və sinif mühitindən başqa, daha hansı mühit uşağa doğru yol göstərir?**

- A Aailə mühiti
- B Küçə mühiti
- C Ekoloji mühit

**5. İnsanın müsbət keyfiyyətlərindən biri hansıdır?**

- A Yalnız özünü düşünmək
- B Özünəinam
- C Özündən razı olmaq

**6. İnsan ən çox nəyə görə məsuliyyət daşıyır?**

- A Qonşular arasındakı münasibətə görə
- B Öhdəsində olan işə görə
- C Qeyri – sabit hava şəraitinə görə

**7. Həyatımızı irəli aparmaq, həyatda qazandıqlarımızı qorumaq üçün bizə nələr lazımdır?**

- A Səyahətə, ekskursiyaya getmək
- B Sülh və birlik
- C Var-dövlət toplamaq

**(7 sual) Cavablar:**

| Düz: | | Səhv: | | İmtina: | | Qiymət: | |
|---|---|---|---|---|---|---|---|

| Müəllim: | |
|---|---|